Türkiyənin İstanbul şəhərində keçirilən “Qlobal Dayanıqlı İnkişaf Konqresi” çərçivəsində elm və təhsil naziri Emin Əmrullayevin “City Hong Kong” Universitetinin prezidenti Freddi Boey və “Asia Greentech” Fondunun sədri Mikael Ngai ilə görüşü baş tutub. Görüşdə “Times Higher Education” Beynəlxalq Reytinq Agentliyinin qlobal məsələlər üzrə baş direktoru Fil Bati və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova da iştirak edib.

Görüş zamanı tərəflər arasında mümkün əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb.